# Özüm boyda sipərəm Döyüşən ər oğluna...



Əbülfət MƏDƏTOĞLU

## Bir az da...

*Hidayət Elvüsala...*
*və hamıya*

Gecəni kirpiklə qor qarışdırdım,
Gəzdim, tapammadım gor qarışdırdım...
Elə əl havası - tor qarışdırdım -
Çıxmağa utandım ruhlar üzünə
Bir az da möhkəm dur, dönüm gözünə!

Sinəmdə göynərti anbaan artır,
Xoşbəxt o kəsdir ki, ürəkdə yatır!
Bəllidi, Ay doğur, Günəş də batır -
Hər gün də yağ damır ümid közünə...
Bir az da mönkəm dur, dönüm gözünə!

Gücünü toparla, qırılsın yedək,
Hərəmiz üz tutub, düz səmtə gedək...
Tuğda, Kəlbəcərdə ibadət edək -
Sözün Allahına, sözün özünə,
Bir az da möhkəm dur, dönüm gözünə!

Tezliklə olacaq elin vüsalı
Öpülən dodağın, telin vüsalı...
Qələbə! - adlanan selin vüsalı -
Təpər gətirəcək yorğun dizinə
Bir az da möhkəm dur, dönüm gözünə!

## Vətən

Bütün ağrı-acını
Canıma köçürürəm.
Odunu, alovunu
Qanıma köçürürəm -
Vətən!

Özüm boyda sipərəm
Döyüşən ər oğluna...
Sərt tikanlı çəpərəm -
Düşmən qorxar toxuna! -
Vətən!

Gözümün ağını da
İşığına qatıram...
Bayraqdar qədəminə -
Ürəyimi atıram! -
Vətən!

Yumruq boyda daşınam,
Qol boyda da ağacın!
Vur düşmənin başına,
Qoy bitsin ağrın, acın -
Vətən!

Bu *zəfər* məqamında
Bir az ruhum yuxadı.
Birnəfəsə gedirəm -
Yolum indi Tuğadı -
Vətən!

## Şuşanın yolu

Aramsız
güllə yağışı
bələyir torpağı...
dəlib keçir
daşı,
otu,
ağacı,
yarpağı...
bir igid
sol əliylə
sıxıb ürəyini -
dizi üstə
qana boyanıb
barmağı -
ovcu qan dolu...
sağ əliylə
tutub bayrağı
güclə dayanıb
baxır,
baxır
və bağırır:
- İrəli, qardaşlar,
görünür Şuşanın yolu!..

